# İdman xəbərləri

## Boksçumuz Avropa Oyunlarının 1/4 finalında



"Qəbələ" İdman Klubunun boksçusu Cavid Çələbiyev Belarusun paytaxtı Minskdə keçirilən II Avropa Oyunlarında növbəti qələbəsini qazanıb. 60 kq çəki dərəcəsində çıxış edən idmançımız "Uruçye Arena"da təşkil olunan boks yarışlarının 1/8 final mərhələsində rinqə çıxıb. Dünya çempionu Moldova təmsilçisi Dorin Buksa ilə qarşılaşıb. 5:0 hesablı qələbə qazanan təmsilçimiz 1/4 finala yüksəlib.

## Çempion titulu uğrunda döyüşəcək

"Qəbələ" İdman Klubunun kikboksçusu Alim Nəbiyev "Glory" təşkilatının çempion kəməri uğrunda mübarizə aparacaq. Yarımorta çəki dərəcəsində reytinq siyahısında birinci olan kikboksçumuz çempion titulunun sahibi Sedrik Dumbe ilə üz-üzə gələcək. "Glory66" çərçivəsində təşkil olunan qarşılaşma Fransanın paytaxtı Parisdə keçiriləcək.

Bu, Alimin peşəkar rinqdə 59-cu döyüşü olacaq. Hesabında 51 qələbə olan kikboksçumuz 7 dəfə uduzub. "Glory" çərçivəsində 7 dəfə qüvvəsini sınayan təmsilçimiz 6 dəfə qalib gəlib.

# Faydalı bitkilər

## Əvəlik xalq təbabətində geniş istifadə edilir

Əvəliyin təzə-tər yarpaqlarını yeyən hər kəs onun turşməzə tamını hiss edir. Lakin çiy yeyiləndə turş dadan əvəlik bişiriləndə yeməklərə ləzzətli tam verir. Yerüstü hissələrindən, cavan zoğ və yarpaqlarından müxtəlif növ vitaminli salat və xörəklər hazırlanır. Kulinariyada ondan şorba, ət və balıq xörəklərinin hazırlanmasında istifadə olunur. May-iyun aylarında əvəlik çiçəkləməmiş onu yığıb saç kimi hörür və qurudaraq qışa tədarük edirlər.

Bu bitki xalq təbabətində öskürək, plevrit, bronxit, bronxial astma, qaraciyər və öd kisəsi, dəri xəstəlikləri, anemiya, qıcıqlanmış bağırsaq sindromu, ürəkbulanma və mədədə qıcqırma zamanı, eləcə də qurdqovucu vasitə kimi geniş tətbiq olunur.

Əvəliyin təzə yarpaqları və zoğlarının şirəsindən qarqara kimi istifadə edilməsi dişətinin iltihabını azaldır, qankəsici təsir göstərir.



Yarpaqlarının yumşaldıcı və iltihab əleyhinə təsirlərinə görə bir çox dəri xəstəliklərində, döyənəklərdə islatma və vanna şəklində qəbul edilir.

Qankəsici və sidikqovucu xüsusiyyətlərə malikdir və buna görə sistit, uretrit kimi xəstəliklərdə yaxşı səmərə verir, həmçinin iştahagətirici kimi geniş tətbiq olunur.

Meyvələrinin dəmləməsi kolit və qastritin müalicəsində istifadə edilir.

# Əsrlərdən gələn müdrik kəlamlar

Ezop evində çalışarkən bir zadəgan qapını döymədən içəri girir və kitab üzərinə əyilmiş filosofa:

-Belə yalnız necə otura bilirsiniz? - deyir.

Ezop başını qaldıraraq:

-Mən tək deyildim, amma sən içəri girdiyin an nə qədər tək olduğumu anladım.

* * *

İnsan öz zəifliyini etiraf etdikdə qüvvətli olur.

**Onore de Balzak.**

İnsan həyatı dəmirə bənzəyir. Əgər ondan iş üçün istifadə edirsənsə parıldayir, istifadə etmirsənsə pas kəsir.

**Katon Starşiy.**

* * *

Ölümdən qorxan insan heç nəyə nail ola bilməz. Yalnız qorxmayana hər şey mənsubdur.

**Lev Tolstoy.**

* * *

Mən hiss edirəm ki, insana bədbəxtlik, çətinlik, yoxsulluq, ya da dərd qəm lazımdır, yoxsa adam özünü tez unudar.

**Uilyam Şekspir.**

* * *

Əxlaqı tərbiyə edən ən nadir kitab - vicdandır. Onunla tez -tez məsləhətləşmək lazımdır.

**Blez Paskal.**

* * *

Uşağa "Belə eləmə" az deyilməlidir. Göstərmək lazımdır ki, bax, belə elə.

**Maksim Qorki.**

* * *

Yaxşılığı gizlətmək pisliyi gizlətməkdən daha üstündür.

**Əbu Bəkir.**

**Topladı: Süsən RÜSTƏMLİ, şəhər 4 nömrəli məktəbin şagirdi.**

# Bilirsinizmi?

- Tarixdə ilk odekolon taun xəstəliyinə qarşı profilaktik vasitə kimi istifadə edilib.
- Hər gün dünyada orta hesabla 33 yeni məhsul buraxılır, bunların 13-nü isə oyuncaqlar təşkil edir.
- Ağcaqanadları yenicə banan yemiş insanın ətri cəlb edir.
- ABŞ əhalisinin yalnız 55%-i Günəşin ulduz olduğunu bilir.
- "İspaniya" "dovşanlar torpağı" kimi tərcümə olunur.
- Bu günə qədər yaşamış ən ağır çəkili adam, 634 kq ağırlığındakı Vaşinqtonlu Con Brouer Minnokdur.
- Bir adamın yaşaya bildiyi ən yüksək bədən hərarəti 46.5 dərəcədir. Normal hərarət isə 35-37 dərəcədir.
- Qiymətli daşların çoxu bir neçə elementdən ibarət olur, yalnız brilyant tamamilə karbondan ibarətdir.
- Atakama səhrasına 400 ildən bəri yağış yağmamaqdadır. Səbəbi isə, yağan yağışın havada buxarlanaraq, yerə gəlib çata bilməməsidir.

**Topladı: Səfa Aslanov**

# Kiçik və nəhəng qalaktikaların fotoşəkilləri yayılıb

ABŞ-ın Milli Aeronavtika və Kosmik Tədqiqatlar Agentliyi (NASA) 265 min qalaktikanın fotoşəkillərini yayıb. "LiveScience" saytı xəbər verir ki, bu fotoşəkillər Hubble kosmik teleskopunun 16 il müddətində apardığı müşahidələrin nəticəsində çəkilib.

NASA-nın yaydığı fotoşəkillərdə kiçik və nəhəng qalaktikalar, habelə planetlərin müxtəlif dövrlərdə hərəkəti əks olunub. Hubble teleskopunun çəkdiyi 7 500 kadrdan ibarət kolleksiya kainatın indiyədək qeydə alınmış ən müfəssəl təsvirlərindən ibarətdir. Kompozisiyalı şəkillərdə işıqları teleskopun obyektinə daxil olanadək müddətdə milyardlarla işıq ili yol qət etmiş 265 min qalaktikanın olduğu bildirilir.

Layihənin müəllifi olan Kaliforniya Universitetinin astronomu Qert İllinqvort bildirib ki, bütün bu fotoşəkillər kainatda qalaktikaların tarixini, təzəcə yarandıqları dövrdən mükəmməl forma alanadək keçdikləri yolu müəyyən etməyə imkan verir. Bu şəkillərdə iki və ya daha çox qalaktikanın toqquşması nəticəsində meydana gəlmiş "qalaktika xarabalıqları" da əks olunub.

NASA-nın Avropa Kosmik Agentliyi və Kosmik Teleskop Elmi-Tədqiqat İnstitutu ilə 1990-cı ildən bəri apardığı müşahidələr davam edir.


## QƏBƏLƏ

Qəbələ rayonunun ictimai-siyasi qəzeti

qəzetinə

2019-cu ilin ikinci yarısı üçün abunə yazılışı davam edir

Yarımillik abunə qiyməti 15 manatdır.

*Qəzetimizə «Kapitalbank»ın Qəbələ filialında abunə yazılmaq olar.*

*Hesab № AZ36AİİB 33080019444900218149. VÖEN 4400103601.*

Redaksiyanın ünvanı: Qəbələ şəhəri, Heydər Əliyev prospekti, 56 (rayon icra hakimiyyətinin inzibati binası, I mərtəbə).

Telefonlar: (024)205-19-14, (024)205-15-56, mob. (050) 671-06-94.


# İtmişdir

Azərbaycan Respublikası ƏMDK yanında DƏDRX Hüquqları Dövlət qeydiyyatı haqqında daşınmaz əmlakın Dövlət reyestrinin Ərazi İdarəsi tərəfindən Qəbələ şəhər sakini **Mustafayev İmran Hüseyn oğluna** verilmiş 23 iyul 2018-ci il tarixli RX seriyalı 1317715 nömrəli (reyestr nömrəsi 406013007506- 10301, qeydiyyat nömrəsi 1918005874) çıxarış və fərdi yaşayış evinin ( inventar nömrəsi 406-1/3347, reyestr nömrəsi 406013007506-10301) **texniki pasportu** itdiyi üçün etibarsız sayılır.


«QƏBƏLƏ» qəzetinin reklam xidməti

205-19-14, 205-15-56


# ALLAH RƏHMƏT ELƏSİN!

Qəbələ şəhər 5 nömrəli tam orta məktəbin kollektivi iş yoldaşları

**RAFİQ ƏHMƏDOVUN**

vəfatından kədərləndiyini bildirir mərhumun ailəsinə dərin hüzünlə başsağlığı verir.


Redaktor Varis Yaqubov.

*TƏSİSÇİLƏR:* Qəbələ Rayon İcra Hakimiyyəti və redaksiyanın jurnalist kollektivi.

*Redaksiya ilə müəllifin mövqeyi fərqli ola bilər*

*Məsul katib Qüdrət Səmədov.*

ÜNVANIMIZ: AZ 3600, Qəbələ şəhəri, Heydər Əliyev prospekti, 226.

Redaktor: (024) 205-19-14.
Ümumi: (024) 205-15-56.
e-mail: news@qebele-ih.gov.az

Elanların və reklamların mətnlərinə görə redaksiya məsuliyyət daşımır.

Azərbaycan Respublikası Mətbuat və İnformasiya Nazirliyində qeyddən keçmişdir. Lisenziya AV № 022611

«Kapitalbank»ın Qəbələ filialında hesab № Az36AİİB 33080019444900218149 VÖEN: 4400103601

«Qəbələ» qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və Bakı şəhərində «Azərmedia» MMC-nin mətbəəsində ofset üsulu ilə çap edilmişdir.

*Dizayner Rais Rəşidov*

Oxucu məktublarına cavab verilmir və əlyazmaları geri qaytarılmır.

Tiraj 1780